Ədəbiyyat qəzeti.

24 iyun 2023-cü il 23

# "Tariximiz, taleyimiz" təqdim edildi




İyunun 22-də Yazıçılar Birliyində ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Tariximiz, taleyimiz" adlı kitabın təqdimatı keçirildi. Yeni nəşrin ideya müəllifi və tərtibçisi Xalq şairi, Yazıçılar Birliyi Ağsaqqallar Şurasının sədri Nəriman Həsənzadə, redaktorları Sərvaz Hüseynoğlu və Səmalə Səfərovadır. Xalq yazıçısı, AYB-nin sədri Anarın ön sözü ilə çap edilən kitaba Xalq şairləri Nəriman Həsənzadənin, Sabir Rüstəmxanlının, Vahid Əzizin, akademiklər İsa Həbibbəylinin, Kamal Abdullanın, Nizami Cəfərovun, Rafael Hüseynovun, Teymur Kərimlinin, Xalq yazıçıları Çingiz Abdullayevin, Elçinin, Elmira Axundovanın, Natiq Rəsulzadənin, AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun ulu öndərlə bağlı dəyərli fikirləri və xatirələri toplanıb.



Tədbiri Xalq yazıçısı, AYB-nin sədri Anar açdı. Vurğuladı ki, dünyaya qalib kimi gəlib, qalib kimi gedən Heydər Əliyev hər xalqa bəlkə də əsrdə bir dəfə qismət olan qənimət, nadir şəxsiyyət idi. Heydər Əliyev ili çərçivəsində bir çox dəyərli nəşrlər tərtib edilib və Elçin Hüseynbəylinin, Gülxani Pənahın da tərtib etdikləri kitablar da bu sıradadı. Xalq şairi və AYB Ağsaqqallar Şurasının sədri Nəriman Həsənzadənin təşəbbüsü, Sərvaz Hüseynoğlu və Səmalə Səfərovanın redaktorluğu ilə nəşr edilən "Tariximiz, taleyimiz" kitabının özəlliyi isə ondadır ki, burada yalnız ulu öndərlə şəxsi ünsiyyətdə olan görkəmli söz ustalarımızın dəyərli fikirləri yer alıb. Müsahibələrin hər biri dərin qədirbilənlik faktı kimi çox maraqlıdır.

Özbəkistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov, Xalq yazıçısı Çingiz Abdullayev, akademik, millət vəkili Nizami Cəfərov, professorlar Abuzər Turan, Akif Azalp, yazıçı-publisistlər Gülxani Pənah və Sərvaz Hüseynoğlu çıxış edərək ulu öndərin parlaq şəxsiyyətindən və təqdim edilən kitabın məziyyətlərindən söz açdılar.

Sonda Xalq şairi N.Həsənzadə dahi siyasətçinin mədəniyyətimiz üzərindəki böyük haqqı, unudulmaz yaxşılıqları barədə maraqlı fikirlərini bölüşdü.

**A.Əsgərli**